*İbrahimov İslam Hacı oğlu,*
*iqtisad elmləri doktor, professor,*
*Bakı Biznes Universiteti,*
*Email: bbu-kafedra@mail.ru*
*Qurbanov Aqil Abid oğlu,*
*iqtisad elmləri namizədi,*
*Bakı Biznes Universiteti,*
*Email: aqilqurbanov73@mail.ru*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TORPAQ RESURSLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Torpaq ehtiyatları üzərində hər hansı mülkiyyət hüququ bütün demokratik ölkələrin mövcud qanunları ilə müəyyən edilir. Həmin ölkələrin məhkəmələri tərəfindən torpaq ehtiyatlarının üzərində yalnız hüquq müdafiə olunur. Bütün torpaq ehtiyatlarının nadirlik xüsusiyyəti vardır. Bu onun daşınmazlığından yaranır. Hər hansı bir torpaq ehtiyatını təkrar istehsal etmək olmur. Torpaq resursları bütün digər məhsulların istehsal edilməsi üçün tələb olunan bir istehsal amilidir. Torpaq ehtiyatları bütün digər sərvətlərin mənbəyidir. Torpaq ehtiyatlarının mövcud qiyməti əsasən kapitallaşdırılmış renta kimi çıxış edir. Bu zaman torpaq ehtiyatlarının bazar dəyəri tələb və təklif əsasında müəyyən olunur. Tələb-təklif qanununa əsasən bazarda torpağın bazar dəyəri və qiyməti aşağı düşdükdə torpaq ərazilərinə tələbat artır. Torpağın qiyməti artdıqda isə mövcud torpaqların ehtiyatlarına, sahələrinə tələbat azalır. Torpaq resursları bir əmtəə kimi bazara çıxarılır. Bu zaman onun əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bazara təklif olunan torpağın miqdarı məhdudlaşır. Bu məhdudlaşma təbiət tərəfindən olur. Ona görə də torpağın qiyməti əsasən onun təyinatına uyğun tələblə müəyyən olunur. Belə ki, torpaqda istehsal edilən məhsulların qiymət səviyyəsi ilə həmin torpaq sahələrinin qiyməti müəyyən olunur. Məsələn, əgər istehsal olunan buğdanın, qarğıdalının, kartofun və ya digər məhsulların qiymətləri kəskin aşağı düşərsə, bu zaman onların yetişdirildiyi torpaq sahələrinə olan tələb də kəskin azalacaqdır. Torpaq sahələrinin qiyməti və icarə haqları da müvafiq olaraq aşağı düşəcəkdir. Fikrimizcə, mövcud torpaq resurslarından səmərəli istifadəyə imkan verən və bu prosesi stimullaşdıran, ölkədə maliyyə, iqtisadi və texnoloji siyasəti ilə tam əhatə edilən təkmil torpaq bazarının formalaşdırılması daha da yaxşı olardı. Təkmil torpaq bazarının formalaşdırılması ölkədə reallaşdırılan aqrar-torpaq islahatlarının məqsədyönlülüyündən, kənd təsərrüfatına yararlı torpaq sahələrinin öz məqsədi üzrə istifadə edilməsi dərəcəsindən, maliyyə-kredit imkanlarından tam və dolğun istifadə etməklə torpağın məhsuldarlıq səviyyəsinin artırılmasından asılıdır.

Müşahidələr göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazilərdə olan torpaq resurslarında bütövlükdə deqradasiya prosesi getmişdir. 30 ilə qədər işğal dövründə, həmin ərazilərdə deqradasiya prosesləri baş vermişdir. Bu proseslərin baş verməsini şərtləndirən, əsasən, iki amil üzərində dayanmaq daha doğru olardı. Bunlardan biri təbii proseslər, ikincisi isə antropogen proseslər hesab olunur. İşğaldan azad edilmiş ərazilərin torpaq resurslarında baş verən təbii proseslər, ilk növbədə, onunla bağlıdır ki, 30 ilə qədərki bir dövrdə keçmiş işğal olunmuş ərazilərdə demək olar ki,

insan ayağının dəyməməsi və mahiyyət etibarilə məhsul istehsal prosesinin baş verməməsi bütövlükdə həmin ərazilərin kənd təsərrüfatı dövriyyəsindən çıxmasına gətirib çıxarmışdır. Antropogen təsirlər isə onunla bağlıdır ki, əslində həmin ərazilərdə müharibə proseslərin baş verməsi, eləcə də hərbi proseslər və silahlı qarşıdurma proseslərinin daha çox kəskinləşməsi mahiyyət etibarilə ona gətirib çıxarmışdı ki, həmin ərazilərdə minaların və digər hərbi resursların toplanması prosesi baş vermiş və bu da bütövlükdə torpağın kənd təsərrüfatı dövriyyəsindən çıxmasına və eyni zamanda, torpaq resurslarının daha çox silahlanma prosesinin destruktiv təzahürlərinə məruz qalmasına səbəb olmuşdur. Dövlət hakimiyyət orqanları tərəfindən işğal dövründə torpaqlarda baş verən dəyişikliyin qiymətləndirilməsinin aparılması vacib amillərdəndir. Bura daxildir:

1. Ümumi torpaq sahəsi üzrə deqradasiyaya uğramış torpağın həcmini müəyyən etmək;
2. Torpaq üzərindəki bitki örtüyündə baş verən dəyişikliklərin qiymətləndirilməsi;
3. Torpaq məhsuldarlığının vəziyyətinin və xalis ilkin istehsala əsaslanan tendensiyaların təhlili;
4. Torpağın üzvi tərkibinin ilkin qiymətləndirilməsi ilə karbohidrogen ehtiyatı dəyişikliklərinin müəyyən edilməsi.

Bu, əldə edilən nəticələrin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında deqradasiyaya uğrayan torpaqların nisbətini təyin etmək üçün gələcəkdə məlumat bazası rolunu oynaya bilər. Bundan əlavə həmin torpaqların gələcəkdə hansı bitki örtüyü altına verilməsi üçün də bu qiymətləndirmənin aparılması vacibdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölkənin dayanıqlı inkişafı üçün yetərincə çox iqtisadi potensialı vardır. Belə kı, bu torpaqlar kənd təsərrüfatının inkişafı baxımından vacib ərazilər hesab olunur. İşğaldan azad olunan ərazilərimizin mövcud potensialı, xammal, su, təbii ehtiyatlar və məhsuldar torpaq sahələrinin həcmini nəzərə alsaq, bərpa mərhələsindən sonra qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məhsul istehsalını dəfələrlə artırmaq olar. Füzuli, Cəbrayıl və Zəngilan rayonu işğaldan əvvəl kifayət qədər böyük aqrar və sənaye potensialına malik rayonlardan biri idi. Həm üzüm, həm taxıl, həm də pambıq istehsalına görə 80-ci illərdə respublika öndə gedirdi. Bu ərazilərin əksər torpaqları kənd təsərrüfatı üçün yararlı və məhsuldardır. Eyni zamanda, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın rayonları da məhsuldar torpaqlara malikdir. Bu torpaqları əkin dövriyyəsinə qaytardıqdan sonra məhsuldarlığını bərpa etmək mümkün olacaqdır, eyni zamanda, həmin ərazilərdə innovativ texnologiyalar tətbiq etməklə o illərdəkindən daha çox məhsul əldə etmək olar. Artıq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən torpaq resurslarının qiymətləndirməsi aparır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əkin dövriyyəsinə cəlb edilməsi Azərbaycan iqtisadiyyatına, xüsusən də ölkənin ərzaq təminatına və ərzaq təhlükəsizliyinin formalaşmasına xüsusi töhfə verəcəkdir. Həmçinin Azərbaycanda su ehtiyatlarının təxminən yarıya qədəri, həmin ərazilərdə kənd təsərrüfatı üçün faydalı torpaq sahələrinin olması sonrakı mərhələdə kənd təsərrüfatı məhsullarının artmasına, ölkədə ərzaq təhlükəsizliyinin güclənməsinə, o cümlədən Azərbaycanın qeyri-neft ixracatının artmasına müsbət təsir göstərəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 29 oktyabr 2020-ci il.

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivliyi üzrə Strateji yol xəritəsi.

4. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı şəhəri, 10 dekabr 2021-ci il.

5. "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 12 avqust 2021-ci il.

6. https://president.az/az/articles/view/52103

7. Cəfərov Q., Qarabağın su ehtiyatları regionun iqtisadi inkişafını sürətləndirəcək, Xalq qəzeti, 13 noyabr 2021-ci il.

8. İbrahimov İ. Regionların və işğaldan azad olunmuş ərazilərin inkişaf istiqamətləri. Bakı, 2022. 271 s.

9. İmanov N. Postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, 2021. 270 s.

10. https://azertag.az/xeber